*“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 28 yanvar 2015-ci il | № 7 (1923) | Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları çərçivəsində həllini tapmasa, bu, digər ölkələrə də öz mənfi təsirini göstərəcək”

### Dünya İqtisadi Forumu çərçivəsində "Regionların transformasiyası: Avrasiya" mövzusunda sessiya keçirilib

***Yanvarın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davos İqtisadi Forumu çərçivəsində keçirilən "Regionların transformasiyası: Avrasiya" mövzusunda sessiyada iştirak edib.***




Sessiyanın aparıcısı iştirakçıları təqdim etdikdən sonra mövzu ilə bağlı sözü Azərbaycan Prezidenti İlham Əliyevə verdi.

Dövlətimizin başçısı ölkəmizin 1991-ci ildən bəri keçdiyi inkişaf yolunu ətraflı xarakterizə etdi. Bildirdi ki, ilk növbədə, siyasi transformasiyanı uğurla həyata keçirən ölkəmiz müstəqillik dövründə açıq qapı siyasəti yürüdüb və planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına müvəffəqiyyətlə keçib. “Ölkə iqtisadiyyatının şaxələndirilməsi hazırda da uğurla davam etdirilir. Artıq Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun xüsusi çəkisi neft sektorunu üstələyir”.

Prezident İlham Əliyev Azərbaycanın mötəbər beynəlxalq maliyyə qurumları, o cümlədən Avropa Yenidənqurma və İnkişaf Bankı ilə də səmərəli əməkdaşlıq etdiyini və çoxlu sayda infrastruktur layihələrini həyata keçirdiyini bildirdi. Prezident qeyd etdi ki, artıq Azərbaycan özü donor ölkəyə çevrilib və xeyli xarici ölkədə bir sıra layihələri maliyyələşdirir. Azərbaycanın enerji təhlükəsizliyini təmin etdiyini vurğulayan Prezident İlham Əliyev ölkəmizin hasil etdiyi təbii qazı hazırda reallaşdırılan "Cənub" qaz dəhlizi vasitəsilə Avropaya nəql edəcəyini dedi.

Dövlətimizin başçısı Azərbaycanın zamanın çağırışlarına, o cümlədən terrorizmə qarşı da fəal mübarizə apardığını qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, ölkəmizin həyata keçirdiyi enerji layihələri regional əməkdaşlıqla yanaşı, beynəlxalq əməkdaşlığa da geniş imkanlar açır və bütün tərəfdaşların həmin layihələrdən bəhrələnmələrinə hərtərəfli imkanlar yaradır. Dövlətimizin başçısı neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar Azərbaycanda xərclərə nəzarətin gücləndirilməsi, israfçılığa yol verilməsi hallarının qarşısının alınması və digər vacib tədbirlər görüldüyünü dedi.

Sonra dövlətimizin başçısı sualları cavablandırdı.

Geosiyasi vəziyyətlə bağlı sualın cavabında Prezident İlham Əliyev bildirdi ki, ölkəmiz artıq 20 ildən çoxdur Ermənistanın işğalçılıq siyasətindən əziyyət çəkir və ötən müddətdə aparılan sülh danışıqları heç bir nəticə verməyib. Dövlətimizin başçısı xüsusi vurğuladı ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, eləcə də keçmiş SSRİ məkanındakı bütün münaqişələr eyni yanaşma yolu ilə həll olunmalıdır. Belə münaqişələrin həll olunmaması yeni münaqişələrə də yol açır. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları çərçivəsində həllini tapmasa, bunun digər ölkələrə də öz mənfi təsirini göstərəcəyini dedi. Dövlətimizin başçısı qeyd etdi ki, beynəlxalq hüquq normaları BMT-nin Nizamnaməsində, ATƏT və digər beynəlxalq təşkilatların sənədlərində konkret şəkildə əksini tapıb. Yalnız beynəlxalq hüquq normalarına əməl edildikdə ikili standartların və belə problemlərin regionda artmasının qarşısı alınar.

Sessiyada səslənən digər məsələlərlə bağlı Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanda iqtisadiyyatın davamlı və dayanıqlı inkişafı diqqət mərkəzindədir. Ölkəmiz "qara qızıl"ı insan kapitalına çevirmək istiqamətində ardıcıl addımlar atır. Respublikamızda təhsilin inkişafına mühüm əhəmiyyət verilir. Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sahəsinin əsaslı şəkildə inkişafı üçün müvafiq işlər həyata keçirilir və artıq ölkəmiz iki peykini orbitə çıxarıb.

Dövlətimizin başçısı qeyd etdi ki, ölkəmizdə siyasi islahatlar da uğurla reallaşdırılır, insanların daha yaxşı yaşayışı üçün ardıcıl işlər görülür. O, ölkəmizin infrastrukturun təkmilləşdirilməsi istiqamətində də ardıcıl tədbirlər həyata keçirdiyini və Avropa ilə Asiyanı birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolunun bunun bariz nümunəsi olduğunu vurğuladı.

Sessiyada Avropa Komissiyasının sabiq sədri Joze Manuel Barrozu və digər çıxış edənlər də Azərbaycanın müstəqillik dövründə uğurlu inkişaf yolu keçdiyini, ölkəmizin qazandığı nailiyyətlərin nümunə xarakteri daşıdığını bildirdilər.

Sessiyada geosiyasi vəziyyət, iqtisadiyyatın şaxələndirilməsi məsələləri, neftin qiymətinin aşağı düşməsi ilə bağlı dünya iqtisadiyyatı və bir sıra ölkələrin iqtisadiyyatının perspektivləri və digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıldı.

**AzərTAc-ın materialları əsasında**

# “Arxivlər və əlyazmalar yanmır”

Ermənistanın Gümrü şəhərində yerləşən Rusiyanın 102 saylı hərbi bazasının hərbi qulluqçusu tərəfindən öldürülən erməni ailəsinin faciəsi bu ölkədə böyük ajiotaja səbəb olub. Belə ki, ermənilər küçə və meydanlara axışaraq cinayəti törətmiş rus əsgərinin ittiham olunmaq üçün Ermənistanın hüquq-mühafizə orqanlarına təhvil verilməsini tələb edir. Buna nail olmayınca daşnaklar etiraz əlaməti olaraq Rusiyanın bayrağını ayaq altına atıblar. Rus hərbi bazasının tezliklə öz ölkələrindən çıxarılması tələbini irəli sürüblər.

Ancaq Rusiya tərəfi buna cavabı çox gözlətmədi. Məşhur jurnalist, politoloq, "İarex" informasiya agentliyinin təsisçisi və baş redaktoru Modest Kolerov sensasion açıqlama verib. Ermənilər türklər tərəfindən "soyqırımı"na məruz qaldıqlarını, həmişə onlar tərəfindən əzildiyini iddia edirdi. Özləri Qafqazın aborigen xalqı olduğunu və daim məzlum qiyafəyə girib dünyaya hay salan erməni saxtakarlığının iç üzünü açır. Qədim Azərbaycan ərazilərində apardıqları arxeoloji "tapıntı"lar "Qədim Ermənistan"a məxsus olduğunu hər vəchlə dünyaya tanıtmaq istəyən ermənilərin yalanını bir anda üzə çıxartdı. O, erməni dövlətinin necə yarandığını və onların Qafqaza necə gəldiklərini, onların hansı mədəniyyətə malik olduqlarını və zaman-zaman özlərinə düşmən sandıqları türklərin adət-ənənəsini, hətta milli mətbəxini necə özününküləşdirdiyini faktlarla təsdiq edib.

Kolerovun söylədiklərinin əsl həqiqət olduğunu yaxşı bilirik və Kremlə yaxın olan bu məşhur jurnalist və politoloqun fikirlərini olduğu kimi təqdim edirik.

"Permyakovun günahı hələ sübut olunmayıb, amma ermənilərdəki antirus əhval-ruhiyyəsi pik həddinə çatıb. Uşaq erməni heyvanının əlinə keçib və törətmədiyi cinayəti boynuna götürüb. Ermənilər unutmamalıdırlar ki, əgər onları zəhmli qonşularından qoruyan Rusiya olmasaydı, Ermənistan da olmazdı. İnternetdə erməni istifadəçilərinin yazdığı axmaq statusları oxuyub onların eşşək tərsliyindən, tarixi faktları görmək istəməmələrindən heyrətə gəlirəm. Onlar Qafqaza nə vaxt gəldiklərini nə tez unutdular? XVIII əsr və rus əsgərlərinin şücaəti, bax buna görə ermənilər indi millətdirlər və dövlətləri var. Onlar Suriya səhralarında yaşayarkən heç vaxt üzüm yarpağının arasına farş doldurmağı bilməyiblər. Çünki nə üzüm yarpağı görmüşdülər və nə də farşın nə olduğunu bildilər. Onların bildikləri yalnız dəvə peyni idi, hansı ki, onları qurudub yandırır və özlərinə kaşa bişirirdilər. Jirinovski nahaq yerə onlara "rus qazının qiyməti sərf etmirsə, peyin qurudub yandırsınlar" məsləhətini verməmişdi.

XX əsrin 70-ci illərində ermənilər İrəvan sərdarının sarayını darmadağın etdilər ki, bu şəhərin müsəlman keçmişindən heç bir əsər qalmasın. Xalqın tarixini onun ədəbiyyatı sübut edir, hansı ki ermənilərdə, ümumiyyətlə, yoxdur. Necə ki, Azərbaycan və türk mətbəxini erməniləşdirib, hətta utanmadan yeməklərinin adını belə dəyişmədən, lülə-kabab, basdırma, dolma, piti, bozbaş, şaşlık və s. qoyublar. Erməni soyadlarına gəldikdə isə, onlar özləri belə utanırlar ki, soyadları türk soyadlarıdır, amma heç cür bunu gizlədə bilmirlər.

Bütün tarixi faktlar sübut edir ki, İrəvanın cəmi 500 yaşı var və bu şəhər yalnız 1918-ci ildə Rusiya tərəfindən yaradılmış Ermənistanın paytaxtı elan olunub, yalnız rusların hesabına olub bütün bunlar. Bu ərazilər İrəvan xanlığının torpaqlarıdır və burada heç bir erməni izi olmayıb. Tarix heç bir erməni imperiyası tanımır və 1918-ci ilə qədər Qafqazda erməni dövləti olmayıb. Əgər olubsa, harada olub və hara yoxa çıxıb, tarixçilər buna heç bir sübut tapa bilmirlər. Axı ermənilər Xaçatur Abovyana qədər heç bir yazıçısı olmayan bir toplum olublar. Abovyan isə XIX əsrdə peyda olub.

Yüzillərdir yalanlarla ermənilərin rəhbərləri onların beyninə dünyanın ən qədim və ən ağıllı milləti olduqları haqda fikirlər doldururlar, amma nədənsə bu "qədim və ağıllı xalqın" təhlükəsizliyini, onun sərhədlərini rus əsgəri qoruyur. Özləri Ermənistanı qoyub qaçıblar, amma Rusiyaya yalvarırlar ki, onların dövlətlərini qorusun. Ermənistanda nə varsa, hamısı Rusiyaya aiddir.

Ermənilər, unutmayın ki, Rusiyada arxivlər və əlyazmalar yanmır, artıq bunu ermənilərə həmişə xatırlatmaq lazımdır ki, bütün dünyanı uydurmaları ilə özlərinə güldürməsinlər. İrəvanın paytaxt kimi hazırkı vəziyyəti "zavallı görkəmli" bir şəhər təəssüratı yaradır. Özlərini dahi adlandıran bu xalq 20 il ərzində öz şəhərlərini nə qura bilib, nə də qurulu olanı saxlaya biliblər. Erməni şəhərləri dağılır, boşalır... Stalker zonasıdır, ora düşməyi heç kimə məsləhət görməzdim. Bu yaxınlarda orada heç kim qalmayacaq, olan-qalanı da dağıdıb Rusiyaya qaçacaqlar və yenə bizə "hər şeyə hazır olduqlarını" deyəcəklər".

**"Azərbaycan Ordusu"**

## AFR hökuməti:

### Soyqırımı haqqında 1948-ci il Konvensiyasının geriyə qüvvəsi yoxdur

Keçən həftə Almaniya bundestaqının saytında AFR hökumətinin ölkə parlamentinin solçu "Die Linke" fraksiyasının sorğusuna rəsmi cavabı dərc edilib.

Cavabda deyilir ki, federal hökumət 1915-16-cı illərdə Osmanlı imperiyasında ermənilərin qətlə yetirilməsinin və oradan qovulmasının 100 illiyinə həsr edilmiş tədbirlərdə iştirak etməyin mümkünlüyü məsələsini öyrənir. Lakin Mərkəzi Erməni Şurasının, Almaniya-Ermənistan Cəmiyyətinin, Erməni Kilsəsinin Almaniyadakı Yeparxiyasının və Ermənistan hökumətinin çağırışlarına baxmayaraq, federal hökumət özü həmin hadisələrin qurbanlarına matəm mərasimi keçirməyi planlaşdırmır.

Eyni zamanda federal hökumət iki ölkə arasında münasibətlərin normallaşdırılması təşəbbüslərini alqışlayaraq vurğulayır ki, 1915-1916-cı illərin hadisələri ilə əlaqədar məsələlərin müzakirəsi ilk növbədə Türkiyənin və Ermənistanın özlərinə aiddir.

Sənəddə mübahisəli məsələlərin öyrənilməsi üçün tarixçilərin birgə komissiyasını yaratmaq barədə çağırış var.

Soyqırımı faktının olub-olmaması məsələsinə gəldikdə isə federal hökumət Soyqırımı haqqında 1948-ci il Konvensiyasını imzalayıb. Həmin Konvensiya 1951-ci ildə, federal hökumət üçün isə 1955-ci il fevralın 22-də qüvvəyə minib.

Federal hökumətin cavabında xüsusi vurğulanır ki, bu Konvensiyanın geriyə qüvvəsi yoxdur.

**AzərTAc**

***İsveçrənin müstəqil www.infosperber.ch internet portalında 1915-ci ildə Osmanlı İmperiyasında baş vermiş hadisələrlə bağlı "Ermənistan: kütləvi deportasiya soyqırımı idi?" başlıqlı məqalə dərc olunub. Tarixçi alim Hakkı Keskinin qələmə aldığı məqalədə saxta erməni iddiaları, bu iddiaları əsassız sayan Doğu Pərincək və İsveçrə dövləti arasında məhkəmə çəkişməsi, Avropa İnsan Haqları Məhkəməsinin yaxın günlərdə gözlənilən qərarı ilə əlaqədar "erməni soyqırımı" mövzusuna elmi mənbələr əsasında qiymət verilib.***

# Uydurma "soyqırımı" iddiaları Ermənistanın Azərbaycan torpaqlarının işğalını və Xocalı soyqırımını ictimai diskussiyadan sıxışdırıb çıxarmaq üçündür

Məqalənin girişində 1948-ci il BMT Konvensiyasında soyqırımına verilmiş tərif ("...milli, etnik, irqi və ya dini qrupu tam və qismən məhv etmək məqsədilə törədilmiş hərəkətlər...") şərh olunur və Osmanlı İmperiyasında deportasiya qərarının arxasında ölkənin şərq əyalətlərindəki erməni əhalisinin sistemli şəkildə qətl edilməsi kimi məqsədin gizlənmədiyi bildirilir və deportasiya qərarına aparan tarixi hadisələr izah edilir.

Məqalədə xüsusilə qeyd olunur ki, işğalçı Fransa və Böyük Britaniya Osmanlı İmperiyasında "Müharibə əsirləri ilə pis rəftar və ermənilərə qarşı qırğınlara görə" təhqiqatlar aparıb, 147 məmur və yüksək rütbəli zabit 1919-1921-ci illərdə Malta adasına sürgün edilib və Böyük Britaniyanın qanunları əsasında onların üzərində mühakimə qurulub. 32 ay davam edən məhkəmədə həmin şəxslərə bəraət verilib və erməni əhalisinə qarşı cinayət törədilməməsi qənaətinə gəlinib. Tarixçi alim məqalədə sual verir ki, "əgər həqiqətən də erməni əhalisinə qarşı soyqırımı törədilmişdisə, o zaman Osmanlı dövlətinin düşməni olan və mühakimənin neytral məhkəmə tərəfindən keçirilməsini rədd edən Böyük Britaniyanın qurduğu məhkəmə niyə müqəssirlərə qarşı heç bir dəlil-sübut tapa bilmədi?".

Eyni zamanda, soyqırımı məsələsinə ciddi tarixi qiymətin verilməsinin tərəfdarı olduğunu qeyd edən H.Keskin tarixçilərdən ibarət beynəlxalq araşdırmaçı qrupun yaradılması məqsədilə 2001-ci ildə Türkiyənin dövlət başçısına müraciət etdiyini bildirir. Diqqətə çatdırılır ki, 2005-ci ildə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Ermənistan prezidentinə tarixi hadisələri birgə araşdırmaq və arxivləri açmağa dair məktubla müraciət etsə də, qarşı tərəf bu müraciəti cavabsız qoymuşdur.

1915-ci ildə baş vermiş hadisələrdə ermənilərin özlərinin günahkar olduğunu dəlillərlə sübut edən alim, bununla belə həmin vaxt həyatını itirmiş hər bir vətəndaşın, xüsusilə də yüz illər boyu üzərində yaşadığı ölkəyə sadiq insanların həlak olmasına görə qəlbən kədərləndiyini yazır. Lakin xarici qüvvələr tərəfindən qızışdırılaraq separatçılıqla məşğul olan və çar Rusiyasının ordusuna əlaltılıq edən ermənilərin qətlə yetirmiş olduğu günahsız insanlar nədənsə dünya ictimaiyyətinin diqqətini cəlb etmir.

H.Keskin məqaləsində bildirir ki, böyük beynəlxalq dəstək və maliyyə resurslarına arxalanan erməni lobbiçiləri yüz il bundan əvvəl baş vermiş hadisələrə dair ciddi elmi diskussiyanın aparılmasının qarşısını hər yolla alır, saxtalaşdırılmış mənbələrə söykənmiş versiyaları dünya ictimaiyyətinə yeganə düzgün mövqe kimi sırıyır və bununla da arxiv materiallarına istinad edən tarixçiləri bir araya gətirən elmi tədbirlərin keçirilməsinə imkan vermirlər.

Tarixçi alim yazır ki, "erməni məsələsi" öndərlərinin getdikcə yüksələn səsi və fəaliyyəti, həmçinin bir məqsədə xidmət edir: Dağlıq Qarabağ və onu əhatə edən rayonların (Azərbaycan ərazisinin beşdə birinin) Ermənistan tərəfindən işğalını və 1992-ci ildə Xocalı sakinlərinə qarşı törədilmiş qırğınları ictimai diskussiyadan sıxışdırıb çıxarmaq. Azərbaycanın işğal olunmuş ərazilərindən bir milyon insan qovularaq qaçqın və məcburi köçkünə çevrilib. Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməyə dair BMT-nin dörd qətnaməsinə, eləcə də Avropa Şurası və Avropa Parlamentinin qərarlarına məhəl qoymur.

Tarixçi alim məqalənin sonunda bildirir ki, həddən artıq ziddiyyətli olan həmin dövrə yalnız mövzuya bələd tarixçilər tərəfindən arxiv materialları və mənbələr əsasında aydınlıq gətirilə bilər. Tarixçilərdən ibarət komissiyanın yaradılması isə Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşmasına yol açar. Bu mövzudan müxtəlif məqsədlər üçün alət kimi istifadə edilməsi həqiqətin ortaya çıxmasına və problemin həllinə töhfə verə bilməz.

**AzərTAc**

*Ön xətdən reportaj*

# Dağ vüqarlı oğullar

***Ana təbiət bu yerlərdən heç nəyini əsirgəməyib. Başdan-başa gözəlliklər diyarı kimi tanınan el-obanın qədim tarixə malik olması sərhəd bölgəsinin qədir-qiymətini daha da artırır. Mədəniyyət, incəsənət, şeir-sənət beşiyi Qazax rayonu həm də igid sərkərdələr, qəhrəman oğullar yetirib. Buna görə də bu diyar həmişə yadellilərdən mərdliklə qorunub, qədim adət-ənənələrini qoruyub saxlayıb. Bu gün də belədir. Qazaxlılar tarixi ənənələri yaşatmaqla Vətənimizin tərəqqisi, yüksəlişi naminə fədakarlıqla çalışırlar.***

Təkcə qazaxlılar yox, xalqımızın bütün övladları ədəbiyyatımızın korifeylərindən olan Səməd Vurğunun dillər əzbəri olan:

*Bilsin ana torpaq,*
*eşitsin Vətən,*
*Müsəlləh əsgərəm*
*mən də bu gündən,*

məşhur misralarını unutmurlar.

Ölməz şairimiz bu misraları böyük Vətən müharibəsi illərində yazsa da, bu gün də öz aktuallığını itirmir. Sərhəd bölgəsinin övladları özlərini Vətənin müsəlləh əsgərləri hesab edirlər. Hər dəfə yurdumuzu göz bəbəyi kimi qoruyan oğullarla görüşlərimiz qəlbimizdə xoş ovqat, ordumuzun qüdrətinə, gücünə inam yaradır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin müdrik kəlamını xatırlamalı olursan: "Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var". Artıq hər bir ölkə vətəndaşı qürur hissi keçirir ki, memarı və qurucusu ulu öndər olan ordumuz respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi tədbirlər nəticəsində müasir ordular səviyyəsinə yüksəlib. Ölkə rəhbərinin cəbhə bölgələrinə səfərləri, əsgər və zabitlərlə görüşləri orduda şəxsi heyətin döyüş əzmini daha da artırır, hər kəsi qarşıda duran vəzifələrin yerinə yetirilməsinə ruhlandırır.



Kütləvi informasiya vasitələrində düşmən tərəfindən atəşkəsin pozulmasına dair məlumatların verilməsi davam edir. Elə gün olmaz ki, düşmən öz məkrli niyyətindən əl çəkmiş olsun. Qəsbkarlar hər gün, hər saat yaşayış məntəqələrini müxtəlif çaplı silahlardan atəşə tuturlar.

Zabit Elmar Zeynalabdinov bildirir ki, son günlər düşmən bir qədər fəallaşsa da, igid döyüşçülərimiz tərəfindən layiqli cavabı verilir. Ermənilər bilirlər ki, Azərbaycanın gündən-günə güclənən ordusu qarşısında tab gətirə bilməyəcəklər. Buna görə də nə edəcəklərini bilmirlər. Bölmələrimiz düşmənin təxribatlarının qarşısını fədakarlıqla alır, əsl şücaət, hünər göstərirlər.

Uca dağların zirvəsi qarlı görünür. Sanki bu dağlar da qəhrəman oğullar kimi Vətənin keşiyini çəkir. Çox keçmir ki, yollar bizi səngər həyatı yaşayan oğulların məskəni olan dağlar qoynuna gətirir. Zabit Eyyub Vəliyevlə görüşürük. Təcrübəli, vətənpərvər zabit düşmən tərəfindən atəşkəsin pozulmasının artdığını və qarşı tərəfin susdurulması üçün cavab tədbirlərinin görüldüyünü diqqətə çatdırır. Sonra şəxsi heyətin döyüş hazırlığının artırılması üçün məşğələlərin, təlimlərin keçirilməsinə xüsusi önəm verildiyini vurğulayır. Onun xidmətləri medallara, fəxri fərmanlara layiq görülüb.

- Şəxsi heyətimiz göstərilən etimadı həmişə doğrultmağa çalışır, - deyə zabit Vətənin keşiyində ayıq-sayıq dayandıqlarını və hər an Ali Baş Komandanın döyüş əmrini yerinə yetirməyə qadir olduqlarını söyləyir.

Müdafiə Nazirliyinin təsdiq etdiyi döyüş planına əsasən, atəş, taktiki və ictimai-siyasi hazırlıq məşğələlərində əsgərlərə nəzəri biliklər aşılanır.

Taborda minaatan batareyanın şəxsi heyəti döyüş hazırlığını həmişə artırmağa çalışır. Burada baş leytenant Ağadadaş Salmanovun komandirlik etdiyi batareyanın döyüş hazırlığında fərqləndiyi önə çəkilir.

Haqqında danışılan zabitlə çöl şəraitində keçirilən məşğələ zamanı tanış oluruq. Müəyyən olunmuş ərazidə yerlərini tutan minaatan batareyanın şəxsi heyətinə keçirilən məşğələdə "Atış və atışın idarə olunması" mövzusu ətraflı izah olunur. Sonra manqalar təyin olunmuş yerlərdə praktiki şəkildə hazırlıqlarını davam etdirirlər. Kiçik çavuş Ruslan Əhmədovun komandiri olduğu minaatan manqası daha çox fərqlənir. Hiss edirsən ki, minaatanlar döyüş vərdişləri qazanmaq üçün səy göstərirlər. Kiçik çavuş Ruslan Əhmədovun, Yamin Məmmədovun müddətdən artıq xidmət edən hərbi qulluqçular kimi nümunəvi xidmətlərini qeyd edən batareya komandiri onların döyüş tapşırıqlarının yerinə yetirilməsində, xidmətdə fərqləndiklərini deməyi də unutmur. Baş tuşlayıcı Kənan Əliyev, heyət nəfərləri Elçin Hüseynli, Nicat Hacıyev və başqaları da həmişə fərqlənirlər.

Növbəti həmsöhbətlərim isə səngər həyatı yaşayan oğullardır. Onlar gecə-gündüz torpaqlarımızın keşiyində dayanan mərd oğullardır. Yüksəkliklərə qalxdıqca qarşı tərəfdəki ərazilər diqqətimizi çəkir.

- İgid döyüşçülərimiz düşməni heç vaxt nəzarətsiz qoymur, atəşkəsi pozmağa çalışan düşmənə layiqli cavab verilir, - deyə zabit Elçin Ağayev bildirir ki, komandiri olduğu şəxsi heyət döyüş tapşırıqlarına müntəzəm əməl edir. - Heç vaxt düşmənə aman verilməyəcək. Ordumuzun hərbi potensialının gündən-günə artırılması da göstərir ki, biz düşməni tamamilə məğlub etmək gücündəyik.

Zabit Elçin Ağayev taleyini ordu həyatı ilə bağlamaqla Vətənə xidmətdən qürur duyur. Silahdaşları Əvəz Əliyev, Pərviz Qəniyev, Ağa Ağayev və başqaları da onunla həmrəy, Vətən uğrunda döyüşə hazır olduqlarını söylədilər.

Döyüş növbətçiliyi çəkən əsgər Nicat Süleymanov əslən Xocavənd rayonundandır. Valideynləri Füzuli rayonunda məskunlaşıblar. Yurd yerlərinə tezliklə dönəcəklərinə inanan əsgər deyir:

- Qarşıda bir lövhə var. Orada Milli Qəhrəman Mübariz İbrahimovun döyüş yolu öz əksini tapıb. Qəhrəmanın davamçısı olmaq hər birimizin arzusudur. Çalışırıq ki, onun yolunu davam etdirməklə qələbəyə doğru addımlarımızı daha da möhkəmləndirək. Biz doğma torpaqlarımızı işğaldan azad etməliyik.

Əsgərlər Çingiz Hüseynov, Sadiq Məmmədov, Ruzi Məbudov, Hüseyn Hüseynzadə, Rövşən İsmayılov və başqaları da söhbətlərində Vətən uğrunda döyüşə hazır olduqlarını xüsusi vurğuladılar.

**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Namiq ARİFOĞLUNUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Düşmənin xüsusi təyinatlı kəşfiyyat-təxribat qrupunun hücumunun qarşısı alınarkən hərbi qulluqçularımız şəhid olub

Son günlər işğal olunmuş Dağlıq Qarabağ ərazisində çoxsaylı itkilər verən Ermənistan Silahlı Qüvvələrinin bölmələri cəbhədəki ağır uğursuzluqlar səbəbindən növbəti dəfə daha aqressiv və eybəcər təxribata əl atıblar.

Düşmənin kəşfiyyat-təxribat qruplarının cəbhə boyu və Azərbaycan-Ermənistan dövlət sərhədində qoşunların təmas xəttində Silahlı Qüvvələrimizin bölmələrinin mövqelərinə qəfil hücum etmək cəhdlərinin qarşısı uğurla alınıb.

Yanvar ayı ərzində ermənilərin 17 hərbi qulluqçusu məhv edilib, 20-dək yaralısı var.

Sayca qat-qat çox olan düşmənlə qeyri-bərabər döyüşdə Silahlı Qüvvələrimizin bölmələri şəxsi şücaət və igidlik göstərib. Düşmən hücumlarının qarşısı alınan zaman 3 hərbi qulluqçumuz şəhid olub, yaralananlar var.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən, şəhid hərbi qulluqçular ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif ediliblər.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidlərin yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

Müdafiə Nazirliyi xüsusi olaraq qeyd edir ki, biz öz xalqımızdan həqiqəti gizlətmirik. Ermənistan mətbuatının cəbhədə guya çoxsaylı itkilərimiz barədə yaydığı məlumatlar tam yalandır, dezinformasiya xarakteri daşıyır və qoşunların təmas xəttindəki vəziyyəti düzgün əks etdirmir.

## Ermənistan Silahlı Qüvvələrinin təxribatının qarşısı alınıb

***23 yanvar 2015-ci il.***

Ermənistanın kəşfiyyat-təxribat qrupları qoşunların təmas xəttini keçməyə cəhd göstəriblər.

Silahlı Qüvvələrimizin bölmələrinin sayıqlığı, düşmənin yaxınlaşmasının əvvəlcədən aşkar edilməsi və görülən qabaqlayıcı tədbirlər nəticəsində şiddətli atışma zamanı itki verən ermənilər geri çəkilməyə məcbur edilib.

Qarşı tərəfin ilkin rəsmi məlumatına görə, işğalçılardan leytenant Karen Qalstyan və sıravi Artak Sarkisyan məhv edilib.

Müdafiə Nazirliyi bildirir ki, Silahlı Qüvvələrimizin bölmələri heç bir itki verməyib. Azərbaycan əsgəri cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir və düşmənin istənilən təxribatının qarşısını almağa hər an hazırdır.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***26 yanvar 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlar, minaatan və qumbaraatanlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 124 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Paravakar, Berkaber, Noyemberyan rayonunun Dovex və Barekamavan kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qızılhacılı, Kəmərli və Qaymaqlı kəndlərində, Berd rayonunun Ayqepar, Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Ağbulaq, Koxanəbi və Muncuqlu kəndlərində, Krasnoselsk rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Tərtər rayonunun Göyarx, Çiləbürt, Yarımca, Çaylı, Ağdam rayonunun Yusifcanlı, Şıxlar, Cəvahirli, Mərzili, Şuraabad, Qaraqaşlı, Novruzlu, Sarıcalı, Kəngərli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Veysəlli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

***27 yanvar 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlar, minaatan və qumbaraatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 126 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Paravakar, Vazaşen, Noyemberyan rayonunun Barekamavan, Voskevan, Şavarşavan kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qaymaqlı, Kəmərli, Quşçu Ayrım, Fərəhli kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər kəndində, Berd rayonunun Ayqepar, Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Hacıalılı, Ağbulaq, Ağdam, Koxanəbi kəndlərində, Krasnoselsk rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tərtər rayonunun Göyarx, Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Şıxlar, Cəvahirli, Mərzili, Şuraabad, Qaraqaşlı, Novruzlu, Sarıcalı, Kəngərli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

*Nümunəvi xidmət*

# Doğmalarına başucalığı gətirən əsgər

***Zabit Rafiq Rzayevlə yanaşı dayanıb minaatanların təlimlərini izləyirik. Budur, heyət nəfərləri kapitan Xaliq Hüseynovun tapşırıqlarını cəld və çevik yerinə yetirərək minaatan qurğusunu "döyüş" və "səfər" vəziyyətinə gətirirlər. Hər kəs üzərinə düşən vəzifəsini səhvə yol vermədən yerinə yetirməyə çalışır. Bussolçu əsgər Ülvi Ramazanlı da qurğunun kiçik gözlüyündən ərazidə müşahidə aparır. Hədəflərin istiqamətini müəyyənləşdirib hesablayıcıya ötürür. Hesablayıcı əsgər isə qısa vaxt ərzində hədəfə qədər olan məsafəni dəqiq ölçüb məhv edilməsi üçün minaatanları məlumatlandırır. Sonda heyət nəfərləri dəqiq atəş zərbələri ilə hədəfləri məhv edirlər. Beləcə, məşğələ öz axarı ilə davam edir.***



Bussolçu əsgər Ülvi Ramazanlı çalışqanlığı və bacarığı ilə diqqətimizi cəlb edir. Hiss edirəm ki, əsgər ixtisasına mükəmməl yiyələnib. Ona görə də tapşırığı yerinə yetirərkən çətinlik çəkmir, səhvə yol vermir.

- Yaxşı bilirəm ki, ixtisasım məsuliyyətli olmağı tələb edir, - deyə əsgər Ülvi Ramazanlı xidmətindən söz açır. - Buna görə də hər addımda diqqətliyəm. İndiyə qədər bir neçə dəfə təlimdə iştirak etmişik. Hər dəfə də hədəfləri dəqiq vuraraq uğur qazanmışıq. Amma qazanılan uğurlar bizi arxayınlaşdırmır. Təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq yenə də təlim-məşq keçir, döyüş təcrübəmizi artırmağa çalışırıq. Hərbi bilikləri öyrənməyə marağım böyükdür. Ona görə də dərslərdə həvəslə iştirak edirəm. Bilmədiklərimi təkrar-təkrar komandirlərimdən soruşuram. Heç kimə sirr deyil ki, uğurlara, qələbələrə gedən çətin yol təlim-məşqlərdən keçir. Məşhur rus sərkərdəsi Suvorov deyib ki, təlimdə tər tökən döyüşdə qan tökməz. İndi biz də təlimlərdə tər tökürük ki, döyüşlərdə düşməni məhv edib asanlıqla qələbə qazanaq. Böyük xidmət yolu keçmiş insanlar yaxşı deyiblər ki, ordu kişilik, mərdlik məktəbidir. Doğrudan da, ordu həyatı insanı xeyli dəyişir, mətinləşdirir. Xidmətə gəldiyim gündən özümə dəyərli dostlar tapmışam. Bu dostluğun təməli ordu sıralarında qoyulduğundan inanıram ki, uzunömürlü olacaqdır. Bu gün Vətənə əsgər olmağımdan qürur duyuram.

Məşğələ davam edir. Heyət nəfərləri heç bir çətinlik çəkmədən öz vəzifələrini peşəkarlıqla yerinə yetirirlər. Əsgər Ülvi Ramazanlı yenə də bussol qurğusu ilə ərazidə müşahidə aparır, hədəflərin istiqamətətini müəyyənləşdirir. Şübhəsiz ki, vəzifə borcunun öhdəsindən bacarıqla gələn Ülvi kimi əsgərlər valideynlərinin yanına alnıaçıq, başıuca qayıdacaqlar.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Hava sərhədlərimizin keşiyində



***Silahlı Qüvvələrimizin bütün hərbi hissələri yeni tədris ilinə "həyəcan" siqnalı ilə başladı və döyüş hazırlığı sahəsində qazandığı nailiyyətləri praktik olaraq nümayiş etdirdi. Hazırda bütün qoşun növlərində döyüş və ictimai-siyasi hazırlıq dərsləri başlayıb. Hərbi təyyarəçilər, motoatıcılar, istehkamçılar, kəşfiyyatçılar, hava hücumundan müdafiəçilər və başqaları gündəlik məşğələlərdə ixtisas və taktiki hazırlıqlarını artırırlar.***

"N" hərbi hissəsinə ilk ezamiyyətim zamanı rastlaşdığım işgüzar mühit, şəxsi heyətin bilavasitə vəzifəsilə məşğul olması, döyüş hazırlığı sahəsində görülən tədbirlər ürəyimdən olmuşdu. Ötən ilin son günlərində yenə həmin hərbi hissəyə, hava hücumundan müdafiəçilərimizin fəaliyyətini işıqlandırmağa gedirdim.

Həmin vaxt Silahlı Qüvvələrdə il ərzində görülmüş tədbirlərə yekun vurulurdu. Döyüş hazırlığı sahəsindəki vəziyyət təhlil edilir, qazanılmış nailiyyətlər dəyərləndirilirdi.

Hava hücumundan müdafiə bölmələrində də 2014-cü ilin nəticələri öyrənildi, bölmələrin fəaliyyəti araşdırıldı, il ərzində fərqlənmiş bölmələr və hərbi qulluqçular komandanlıq tərəfindən mükafatlandırıldılar. Fərqlənənlər arasında "N" hərbi hissəsinin hava hücumundan müdafiəçiləri də vardı.

Hərbi hissədə məlum oldu ki, hava hücumundan müdafiə bölmələrinin batareya komandirlərilə üçgünlük toplanış keçirilir.

- Tədbirin keçirilməsində məqsəd həmin vəzifələri tutmuş zabitlərin peşə ustalıqlarını artırmaq, döyüş növbəsinin təşkilini və aparılma qaydalarını daha mükəmməl mənimsətmək, bir sözlə, batareya komandirlərinin bilik və bacarıqlarını bir pillə yuxarı vəzifəyə hazırlamaqdan ibarətdir, - zabit Hidayət Mirzəyev bildirir. - Biz öz bölmələrimizdə döyüş hazırlığını müasir tələblər səviyyəsinə qaldırmaq üçün tapşırıqlarımızı batareya komandirlərinə çatdırırıq. Ön xətdəki hərbi hissələrin hava hücumundan müdafiə bölmələri, bildiyimiz kimi, gecə-gündüz döyüş növbəsi aparır. Həmin bölmələrin döyüş hazırlığı dərslərinin daha səmərəli keçirilməsi üçün müəyyən dəyişiklik edilib. Bu dəyişikliklər batareya komandirlərinin nəzərinə çatdırılır. Yəni əsas məqsəd burada yeni tədris ilinin tələblərinə uyğun olaraq batareya komandirlərinə tapşırıqların verilməsi, müvafiq hazırlıq işlərinin aparılması və döyüş hazırlığı tədbirlərinin daha səmərəli keçirilməsindən ibarətdir.

Ümumiyyətlə, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə uyğun olaraq, 2015-ci ildə Silahlı Qüvvələrdə döyüş hazırlığının daha da möhkəmləndirilməsi qarşıya əsas vəzifə kimi qoyulub.

Toplantının keçirildiyi günlərdə məşğələ rəhbərləri mövzulara uyğun dərsləri keçir, tədrisdə baş vermiş dəyişiklikləri dinləyicilərə çatdırırdılar. Dərslər başa çatdıqdan sonra batareya komandirləri ixtisas hazırlığından və fiziki hazırlıqdan normativlər verdilər və onlardan məqbullar götürüldü.

- 2014-cü tədris ili başlanan kimi Müdafiə naziri general-polkovnik Zakir Həsənov bizim hərbi hissəyə gəlmiş və döyüş hazırlığının yüksəldilməsi üçün tapşırıqlar vermişdi, - zabit Hidayət Mirzəyev bildirir. - Bir sözlə, ordu rəhbərliyi tərəfindən nəzarətin gücləndirilməsi işimizə öz müsbət təsirini göstərdi. Ona görə ilin əvvəlindən döyüş hazırlığı, ixtisas və taktiki hazırlığın yüksəldilməsi üçün bölmələrimiz öz bacarıqlarını daha həvəslə artırmağa çalışdılar. Döyüş hazırlığı dərsləri, çöl məşğələləri, təlimlər vaxtında və səmərəli keçirildi.

Döyüş hazırlığı planına uyğun olaraq, hava hücumundan müdafiə bölmələrində yarımilliklər ərzində çöl çıxışları təşkil edilmiş, hava və yer hədəflərinə qarşı təlim atış çalışmaları yerinə yetirilmişdi.

Bütün bölmələr, həm ön xətdə, həm də ehtiyatda olan bölmələr üçün taktiki təlimlər keçirilib. Yəni plana uyğun olaraq, döyüş hazırlığı tədbirləri tam şəkildə həyata keçirilib.

Bundan əlavə, Silahlı Qüvvələrimiz üzrə atıcı-zenitçilər arasında "ən yaxşı zenitçi" adı uğrunda yarışlar təşkil edilib və hərbi hissənin hava hücumundan müdafiəçiləri bu yarışa qatılıblar. Hərbi hissənin zenitçiləri bu yarışlarda fərqlənməyi, Silahlı Qüvvələrimizdə hamıdan üstün olmağı bacarıblar. Əsgər Ülvi Orucov həmin yarışlarda ən yüksək nəticə göstərərək birinci yeri tutub. Bu nəticəyə görə əsgər Orucov Hərbi Hava Qüvvələrinin komandanı tərəfindən qiymətli hədiyyə ilə mükafatlandırılıb.

İl ərzində kapitan Zamiq Məsimovun və kapitan İdris İsayevin bölmələri fərqlənmişlər. Biz də vaxtilə komandanlığın məsləhətilə kapitan İsayevin bölməsindən yazı hazırlamışdıq. Biz ezamiyyətdə olarkən bu bölmələrin komandirləri mükafatlandırılmaq üçün komandanlığa təqdim edilmişdilər.

Digər sahələrdə olduğu kimi, hava hücumundan müdafiə bölmələrində də yeni tədris ilinə hazırlıq görülürdü. Şəxsi heyət maddi bazanı yeniləyir, digər normativ sənədləri qaydaya salırdı.

Hərbi hissənin şəxsi heyəti tədris prosesindən ayrılmamaq şərtilə müəyyən edilmiş mövqelərdə hava hücumundan etibarlı müdafiəni təmin edirlər. Bu məqsədlə hava hücumundan müdafiəçilər döyüş postları qoyublar və həmin postlarda gecə-gündüz demədən döyüş növbəsi aparırlar.

Bu gün hava hücumundan müdafiəçilərimiz Vətənimizin, xalqımızın aydın səma altında, əmin-amanlıq şəraitində yaşamasını təmin edirlər. Bəli, Azərbaycanımızın səma sərhədlərinin müdafiəsi hazırda lazımi səviyyədə təmin olunur.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# “Bu gün Silahlı Qüvvələrdə Həzilərin yüzlərcə, minlərcə davamçıları vardır”

## Lənkəran şəhərində general-mayor Həzi Aslanovun xatirəsi yad edilib





Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 105 və Böyük Vətən müharibəsində həlak olmasının 70 illiyinə həsr olunmuş silsilə tədbirlər başa çatıb.

Yanvarın 24-də sərkərdənin anadan olduğu Lənkəran şəhərində Silahlı Qüvvələrin tank heyəti fəallarının toplantısı keçirilib. Əvvəlcə görüş iştirakçıları, şəhər icra hakimiyyətinin və veteran təşkilatının nümayəndələri, Aslanovlar ailəsinin üzvləri H.Aslanovun parkdakı möhtəşəm abidəsini ziyarət edərək qarşısına əklillər və gül çələngləri qoyublar.

Anım mərasimində Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani qeyd edib ki, qəhrəmanın keçdiyi şanlı döyüş və qəhrəmanlıq yolu müstəqil Azərbaycanımızı qorumaqda gənclərimiz üçün örnəkdi. “Bu gün Silahlı Qüvvələrdə Həzilərin yüzlərcə, minlərcə davamçıları vardır”.

Rayon ağsaqqalları adından Sərhəd Məmmədov və sərkərdənin nəvəsi, polis zabiti Emil Aslanov ailəsinə və qəhrəmanın xatirəsinin əziz tutulmasına göstərdikləri diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Müdafiə Naziriliyinin rəhbərliyinə minnətdarlıq ediblər.

Sonra müxtəlif hərbi hissələrdən gələn tank heyəti fəalları H.Aslanovun memorial-ev muzeyində olub və burada toplantı öz işinə başlayıb.

Müdafiə Nazirliyinin zabiti polkovnik A.Qurbani əvvəlcə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun iştirakçılara təbrikini çatdırıb. Cəbhə bölgəsindən gəlmiş tank heyəti üzvləri uğur və nailiyyətlərdən söhbət açıb və Vətən torpaqlarının keşiyində ayıq-sayıq dayandıqlarını qeyd ediblər.




Toplantı iştirakçılarına Müdafiə Nazirliyi adından hədiyyələr, H.Aslanov haqqında kitab-albom və disklər təqdim olunub. Xalq artisti Qabil Quliyev və şəhər məktəblilərinin iştirakı ilə "Həzi ürəklərdə yaşayır" əbədi kompozisiya tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

H.Aslanovun ev muzeyinin qarşısında qəhrəmanın büstü önündə xatirə şəkli çəkdirən toplantı iştirakçıları onun anadan olduğu evdən xoş təəssüratla ayrılıblar.

Sonra Lənkəran qarnizon zabitlər evində Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının istehsalı olan "Sizi dünyalar qədər sevirdim" filminə kütləvi baxış keçirilib. Toplantı iştirakçıları şəhərin Heydər Əliyev parkını gəzib və Milli Qəhrəman Əsgər Əliyevin abidəsini ziyarət ediblər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# “Hərbi xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli medal Rüstəm Əzizovun ailəsinə təqdim edilib



***2014-cü ilin noyabr ayının 20-də düşmən atəşini susdurarkən şəhid olmuş Rüstəm İzzət oğlu Əzizovun Astara rayonunun Ağkörpü kəndində anım mərasimi keçirilib.***

Şəhidin təhsil aldığı kənd orta məktəbinin qarşısına toplaşan sakinlər, müəllimlər, rayon ictimaiyyətinin nümayəndələri qarşısında əvvəlcə Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrini oxuyub və şəhidin ölümündən sonra layiq görüldüyü "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı Rüstəm Əzizovun ailəsinə təqdim edib.

Rayonun təhsil şöbəsinin müdiri Qızbəs Məmmədova, məktəbin direktoru Zahirəddin Muxtarov, müəllimlərdən Seyidhəsən Xanməmmədov, Nəbi Xalıqov çıxış edərək Azərbaycan əsgərinin qəhrəmanlığından qürur duyduqlarını və bundan sonra da ordumuz üçün vətənpərvər, mənəvi və fiziki cəhətdən sağlam nəsillər tərbiyə edəcəklərini qeyd ediblər.

Qarabağ müharibəsinin iştirakçısı Tofiq Abbasov öz çıxışında "Murovdağ döyüşlərində şəhidlik zirvəsinə ucalmaq istəsəm də, bu mənə qismət olmadı. Ancaq şagirdim Rüstəm bu müqəddəs mərtəbəyə yüksəldi. Mən və mənim kimi yüzlərcə, minlərcə Qarabağ qazisi işğal altında olan torpaqlarımızı azad etməyə, Azərbaycan Ordusu sıralarında yenidən döyüşə atılmağa hər an hazırıq" - deyib.

Şəhidin dostu Fuad Ağamaloğlu ona həsr etdiyi şeiri oxuyub, 10-cu sinif şagirdi Polad Bağırov isə bu il kənddən bir neçə nəfərin hərbi məktəbə daxil olacaqlarını, çağırışçı gənclərin isə şəhid qardaşlarının qisaslarını almaq üçün həqiqi hərbi xidmətə yollanacaqları günü səbirsizliklə gözlədiklərini deyib.



İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun nəvəsi Emil Aslanov anım mərasimi iştirakçılarını H.Aslanovlar ailəsi adından salamlayaraq qeyd edib ki, qəhrəmanlığa həyatda həmişə yer var. "Qəhrəmanlıq qəhrəmanla ölmür, onun ömrü uzun olur. Mənim babam 70 il öncə Böyük Vətən müharibəsində həlak olsa da, onun xatirəsi həmişə əziz tutulur. Xalqımız və dövlətimiz Azərbaycanın ərazi bütövlüyünü qoruyarkən həlak olmuş oğullarımızı, eləcə də Rüstəm Əzizovu heç vaxt unutmayacaq", - deyə E.Aslanov bildirib.

Astara rayon İcra Hakimiyyətinin məsul işçisi Mərasim Hacızadə və şəhidin valideynləri şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq ediblər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

***Hər tərəf qardır. Zabit Dəyanət Əliyevlə hərbi hissənin qərargahından çıxıb üzü yuxarı - Vətənimizin dilbər guşələrindən biri olan və 20 ildən atıq düşmən işğalında qalan doğma Kəlbəcərə uzanan yola çıxırıq. Heyif ki, biz bu yolu sonacan gedə bilmirik. Uca dağlar göz işlədikcə dümağ görünür, təkcə uzaqdan görünən iri qayalıqlardan başqa.***

Tə*lim*

# Peşəkarlıq istehkamçılar üçün ən vacib şərtdir

Bir qədər məsafə qət edəndən sonra hərbi bölmələrdən birinə çatırıq. Burada torpaqlarımızın keşiyində dayanan əsgərlər bir an belə sayıqlığını itirmir. Bura cəbhə bölgəsi olduğu üçün kənar şəxslərin gəliş-gedişi məhduddur. Bu səbəbdən də ərazi əsgərlər tərəfindən dəqiq və fasiləsiz nəzarətdə saxlanılır, müşahidə haqqında tez-tez qərargaha məlumat verilir.

Bizi burada baş leytenant Tərlan Əliyev qarşıladı. İlk baxışdan zabitin bacarıqlı və öz işinin öhdəsindən yüksək səviyyədə gələ bilən bir peşəkar hərbçi olduğunu duydum. Onun komandiri olduğu bölmənin əsgər yataqxanasına keçirəm. Foyedə Qarabağ müharibəsində misilsiz qəhrəmanlıqlar göstərmiş Milli Qəhrəmanlarımızın şəkilləri olan lövhə, divar mətbuatı, dərs cədvəli və nizamnamələrə diqqət yetirmədən yan ötmək mümkün deyil. Zabit D.Əliyev bu zaman bölmə komandirinin xidmətini layiqincə qiymətləndirərək bildirdi ki, baş leytenant T.Əliyev öz işini mükəmməl bilən, tutduğu vəzifənin öhdəsindən bacarıqla gələn zabitlərdən biridir. Onun işgüzar olduğunu bölmədə yaradılan nizam-intizamdan, səliqə-sahmandan da bilmək olur. Çöldə hava olduqca soyuq və şaxtalı idi. Postda duran, ərazidə işləyən əsgərlər isti geyimlə təmin olunmuşdular. Söz yox ki, bu cür təminatlı əsgərlər hərbi xidmətlərini vicdanla davam etdirəcəklər.

Zabit T.Əliyevlə xidmət yerində görüşüb onunla yaxından tanış oluram. 2007-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Müxtəlif hərbi hissələrdə zabit kimi xidmət etsə də, artıq xeyli vaxtdır bu dağlar qoynunda düşmənlə təmas xəttində yerləşən birləşmənin mövqelərini mühəndis-istehkam qurğuları ilə təmin edir. Tərlan deyir ki, mövqelərimizin etibarlı müdafiəsi üçün onlar lazım olan əraziləri düşmən hərəkətini məhdudlaşdıracaq maneələri ilə təmin edib. Belə ki, tez-tez həmin ərazilərə baş çəkir, orada mühəndis qurğularının mövcudluğunu daim



diqqətdə saxlayır.

Mühəndis-istehkamçı zabit onu da əlavə etdi ki, bu işləri uğurla həyata keçirmək üçün bacarıqlı əsgərlər olmalıdır. Onlar tank və piyada əleyhinə olan hər növ minaları əraziyə yerləşdirməyi bacarmalıdı. Bundan başqa hər bir əsgər mina axtaran cihaz, yaxud da "şup" vasitəsilə minanı tapmalı, onu zərərsizləşdirməyi bacarmalıdı. Hazırda onun komandiri olduğu bölmədə bu işləri bacaran əsgərlər çoxdur. Söz yox ki, bu da zabitin tabeliyində olanların mükəmməl hazırlığından irəli gəlir.

Zabit T.Əliyev istənilən hava şəraitində müxtəlif ərazilərdə mühəndis qurğularını yerləşdirməyi və axtarıb zərərsizləşdirməsi ən vacib şərtlərdən hesab edir. Hazırda olduğumuz ərazidə qar var. Belə bir hava şəraitində də minaların zərərsizləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən də belə çətin şəraitdə qarşıya qoyulan tapşırıqları yerinə yetirmək üçün əsgərlərin döyüş hazırlığının artırılmasına ciddi fikir verilir.

Əsgər Kənan Məmmədli bir ilə yaxındır hərbi xidmətdədir. O deyir ki, xidmətə gəldiyi qısa zamanda minaların taktiki-texniki xassələrini öyrənib. Həmçinin minaları basdıraraq onları döyüş vəziyyətinə gətirməyi və zərərsizləşdirmə qaydalarını yerinə yetirməyi bacarır.

Əsgər Cavid Əfəndizadə isə Bakının Nərimanov rayonundandır, hərbi xidmətinin başa çatmasına az qalıb. Cavid cəbhə bölgəsində düşmənlə təmas xəttində xidmət etməkdən qürur duyduğunu deyir. O, mühəndis-istehkamçı kimi bu vacib peşənin sirlərinə mükəmməl yiyələnib, dəfələrlə üzərinə düşən döyüş tapşırığını layiqincə icra edib. Komandirlər də onun bu xidmətini yetərincə qiymətləndiriblər.

Bölmədə yüksək döyüş hazırlığına və nizam-intizama görə fərqlənən əsgərlərdən Yasin Əmirlinin, Pərviz Məmmədovun və başqalarının da adlarını qeyd etmək olar.

Zabit T.Əliyev tabeliyində olanlara mükəmməl bilik və bacarıqları aşılamağı vacib hesab edir, daim onlara hərbi bilikləri aşılayır və çöl-səhra təcrübəsinə böyük önəm verir. Əlbəttə, belə məsuliyyət hissi olan yerdə uğurlar da çox olacaq.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Mariupolun atəşə tutulması nəticəsində həlak olanların sayı 30 nəfərə çatıb



Son məlumatlara görə, Ukraynanın Mariupol şəhərinin separatçılar tərəfindən atəşə tutulması nəticəsində həlak olanların sayı 30 nəfərə çatıb.

AzərTAc Ukrinform-a istinadla xəbər verir ki, Mariupolda 30 dinc sakin, o cümlədən iki uşaq həlak olub, şəhərin daha 95 sakini, o cümlədən 9 uşaq yaralanıb. Zərərçəkmişlərin sayı artmaqdadır.

Yanvarın 24-də Donetsk vilayətinin Mariupol şəhərinin artilleriya atəşinə tutulması ilə əlaqədar, yanvarın 25-i Ukraynada matəm günü elan edilib. Ukrayna dövlətinin başçısı Pyotr Poroşenko bu barədə müvafiq fərman imzalayıb.

### BMT: 1,5 milyondan çox ukraynalı öz evlərini tərk etmək məcburiyyətində qalıb



BMT-nin humanitar məsələlərin koordinasiyası üzrə idarəsinin məruzəsində Ukraynada məcburi köçkün dalğasının kəskin artdığı qeyd olunur. Belə ki, məcburi köçkünlərin sayı təxminən 1 milyon nəfərə çatıb, 600 min nəfər isə qaçqın vəziyyətinə düşüb.

AzərTAc xəbər verir ki, yanvarın 21-dək Ukrayna Sosial İnkişaf Nazirliyi 921 640 nəfər məcburi köçkünü qeydiyyatdan keçirib. Ukraynadan əsasən Rusiya Federasiyası daxil olmaqla digər ölkələrə gedən qaçqınların sayının isə 600 min nəfərə çatdığı bildirilir.

BMT-nin məlumatına görə, Ukraynanın şərqində keçən ilin aprel ayından başlamış silahlı toqquşmaların qurbanlarının sayı 5086 nəfərə çatıb. Yanvarın 13-dən 21-ə qədər isə yenidən başlayan hərbi əməliyyatlar nəticəsində aralarında 7 uşağın da olduğu 262 nəfər həyatını itirib, 380 nəfər yaralanıb.

Həmçinin, BMT Təhlükəsizlik Şurasında Ukrayna üzrə fövqəladə iclasın keçirilməsi planlaşdırılır.

### İran xarici dövlətlərlə hesablaşmalarda dollardan istifadəni dayandırır



İran xarici dövlətlərlə hesablaşmalarda dollardan istifadəni dayandırmaq qərarına gəlib. Bunu İran İslam Respublikası Mərkəzi Bankının rəsmisi bəyan edib.

AzərTAc Tasnim informasiya agentliyinə istinadla xəbər verir ki, bundan sonra xarici ticarətdə digər valyutalardan, o cümlədən avro, yuan, türk lirəsi, rus rublu və Cənubi Koreya valyutasından istifadə olunacaq.

Mərkəzi Bankın direktor müavini Qulaməli Kamyab qeyd edib ki, İran hazırda bir sıra ölkələrlə başqa pul vahidlərindən istifadəyə dair ikitərəfli müqavilələr bağlamaq imkanlarını nəzərdən keçirir. Onun dediyinə görə, ticarət-iqtisadi əlaqələrin həyata keçirilməsinə imkan yaradacaq belə müqavilələrin imzalanması yaxın vaxtlarda nəzərdə tutulur.

### Kuba-ABŞ: münasibətlərin nizamlanmasına doğru ilk addım



ABŞ və Kuba münasibətləri tarixində yeni səhifə açılır. Tərəflər Havanada ilk dəfə danışıqlar masası arxasında oturublar. Vaşinqton "Azadlıq Adası"na tətbiq olunmuş ticarət blokadasını aradan qaldırmağı vəd edib.

AzərTAc xəbər verir ki, danışıqların ilk raundunu şərh edən Havana və Vaşinqton təmsilçiləri ilk addımın atıldığını, lakin yolun sonuna hələ çox qaldığını bildiriblər.

Danışıqlarda səfirliklərin açılması, mühacirlərin problemləri və Kubada insan haqlarının qorunması məsələləri müzakirə olunub.

ABŞ-Kuba münasibətlərində irəliləyiş keçən ilin dekabr ayında başlamışdı. O zaman Prezident Barak Obama Kubanın üzərindən ticarət blokadasını qaldırmaq və diplomatik münasibətləri bərpa etmək niyyətində olduğunu bəyan etmişdi. Raul Kastro da öz növbəsində bu qərarı dəstəkləmiş, lakin bütün hallarda Kommunist Partiyasının hakimiyyətdə qalacağını bildirmişdi.

### Səudiyyə Ərəbistanının kralı adsız məzarda basdırılıb



Ər-Riyadın böyük məscidində Səudiyyə Ərəbistanının kralı Abdullah bin Əbdüləziz Əl Səud ilə vida mərasimi keçirilib. Məsciddə dualar oxunduqdan sonra kralın qızıl kəfənə bürünmüş cəsədi təcili yardım maşını ilə Əl-Aud şəhər qəbiristanlığına aparılıb. Adət-ənənəyə uyğun olaraq, kral tez və hər hansı təmtəraq olmadan torpağa tapşırılıb. O, müsəlman adət-ənənələri üzrə adsız məzarda dəfn olunub.

Abdullah bin Əbdüləziz Əl Səud kral nəslinin banisi Əbdüləziz Al Səudun 42 oğlundan onuncusu idi. O, taxt-taca 2005-ci ildə gəlmişdi. 2013-cü ildə varidatı 63,2 milyard dollar məbləğində qiymətləndirilən Abdullah dünyanın ən zəngin insanları arasında 8-ci, ən varlı monarxlar arasında isə 2-ci yeri tuturdu.

### "Google" şirkətinin rəhbəri internetin yox olacağını deyib



Texnoloji nəhənglərdən sayılan "Google" şirkətinin rəhbəri və dünyanın ən varlı sahibkarlarından biri Erik Şmidt internetin hazırkı formada sayılı günlərinin qaldığını deyib. AzərTAc Rusiyanın NTV telekanalına istinadla xəbər verir ki, "Google" şirkətinin rəhbəri bunu İsveçrənin Davos şəhərində keçirilən İqtisadi Forum zamanı şəbəkənin gələcəyi barədə jurnalistlərin suallarını cavablandırarkən bildirib. Erik Şmidt deyib: İnternet ləğv olunacaq. İP-ünvanı, qurğu və müxtəlif qəbuledicilər, üzərinizə taxılmış, təmasda olduğunuz əşyalar o qədər çoxalacaq ki, siz bunu hiss edə bilməyəcəksiniz. O, daim ətrafınızda olacaq. Həmçinin internetin gələcəyini smartfonlar və onların proqramlarının dəyişdirəcəyini deyən E.Şmidt bu sahədə bazarın tamamilə açıq olduğunu vurğulayıb.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# "Şəmkir"lilərin üçqat qələbəsi

## Silahlı Qüvvələrdə daşqaldırma birinciliyi keçirilib

***Hərbi kollektivlərin bütün fəaliyyəti və planlaşdırılaraq həyata keçirilən müxtəlif tədbirlər bir məqsədə - hərbçiləri Vətənin silahlı müdafiəsinə hazırlamağa yönəldilir. Bu tədbirlər sırasına kütləvi idman tədbirlərinin keçirilməsi, döyüşçülərdə sağlamlıq və güc kimi zəruri keyfiyyətlərin aşılanması da daxildir. Silahlı Qüvvələrimiz üzrə keçirilən müxtəlif idman tədbirləri, ayrı-ayrı idman növləri üzrə birinciliklər döyüşçülərimiz arasında təkcə idmana marağın artırılmasına deyil, həmçinin gündəlik xidmət prosesində əsgər və zabitlərə gərəkli olan vərdişlərin qazanılmasına yardımçı olur.***





Daşqaldırma birinciliyi yanvarın 22-də Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin idman zalında start götürdü və iki gün davam etdi. Açılış mərasimində çıxış edən Müdafiə Nazirliyi fiziki hazırlıq və idman bölməsinin rəisi polkovnik-leytenant Sadiq Paşayev mərasim iştirakçılarını yeni idman ilinin başlanması və ilk birinciliyin keçirilməsi münasibətilə təbrik etdi, onlara uğurlar arzuladı.

Silahlı Qüvvələrin bütün qoşun növlərinə məxsus olan hərbi hissələri təmsil edən komandalar 6 çəkidə ən güclüləri müəyyən etmək uğrunda mübarizə apardılar.

"Şəmkir" , "Beyləqan" və "Bərdə" komandaları bu yarışa yüksək səviyyədə hazırlaşıblar. Zabitlər Qoşqar Əliyev, Nəcəf Cəfərov və Hamlet Nəbiyev idmançıların seçilməsində və birinciliyə hazırlaşmasında az zəhmət çəkməyiblər. Şübhəsiz, kim daha çox çalışırsa, o da birinciliklərdə qalib gəlir.

"Şəmkir" daşqaldıranları bu birincilikdə iki qızıl, üç gümüş medala sahib çıxdılar. Əsgər Əli Bəşirov (60 kq) növbə ilə hər iki əlilə 90 dəfə, əsgər Elçin Fərzəliyev (90 kq) 130 dəfə 24 kiloqramlıq daşı başları üzərinə qaldıraraq Silahlı Qüvvələrin çempionu adını qazandılar. Əlibaba Abbasov (70 kq) 108, Taleh Məmmədov (+90kq) 106, Murad Hüseynli (80 kq) 100 dəfə daşı qaldırmaqla birinciliyi ikinci yerdə başa vurub komandalarına vacib xallar qazandırdılar.

Xoşdur ki, mayor Əliyev öz vəzifəsinə yetərincə məsuliyyətlə yanaşır və qeyd etmək istərdim ki, onun hazırladığı "Şəmkir" komandası 2014-cü ilin yekunlarına görə Silahlı Qüvvələrdə birinci yeri tutub. Bu nailiyyətdə hərbi hissələrin idman rəislərinin də zəhmətini qeyd etməmək olmaz. Komandanı təşkil edən idmançıların birinciliklərə seçilib hazırlanmasında kapitan Qaryağdı Əliyev və baş leytenant Yaşar Qasımovun da xidmətləri az deyil.

Ən yaxşı çıxış etmiş "Şəmkir" komandası ümumi hesabda birinci yeri tutdu. Üç il dalbadal qalib olduğuna görə birinciliyin keçici kuboku həmişəlik qərb bölgəsini təmsil edən komandaya verildi.

Fiziki hazırlıq və idman rəisi mayor Qoşqar Əliyev bizimlə söhbətində dedi:

- Birinciliyin nəticələri bizim üçün yaxşı oldu. 6 çəkidən ikisində idmançılarımız çempion oldular. 90 kiloqram çəki dərəcəsində əsgər Fərzəliyev birincilikdə ən yaxşı nəticə göstərdi. O, hər əlilə daşı 65 dəfə qaldırdı və birinciliyin qalibi oldu. Bu birincilikdə heç kəs onun nəticəsini təkrarlaya bilmədi. Üç daşqaldıranımız isə ikinci yeri tutdu. Bir iştirakçımıza - Fazil Zamanzadəyə böyük ümidlər bəsləsək də, uğursuz çıxış etdi. Bir əli ilə çəkisində ən çox qaldırmışdı. Ancaq ikinci əlilə qaldırarkən daş əlindən düşdü və o, yalnız dördüncü yeri tutdu. Halbuki birinci yerə namizədlərdən idi. Bizimçün bu birincilik həm də onunla əlamətdardır ki, üç il dalbadal daşqaldırma birinciliyində komanda hesabında birinci olduğumuza görə keçici kubok həmişəlik bizim komandaya verildi. Hesab edirəm ki, bu, komandamız üçün daha sevindiricidir.



Birincilikdə ikinci yerə Beyləqan bölgəsini təmsil edən komanda layiq görüldü. Komandanı yarışa hərbi hissənin fiziki hazırlıq və idman rəisi kapitan Nəcəf Cəfərov hazırlayıb. "Beyləqan"lılar birincilikdə bir qızıl, iki gümüş və bir bürünc medal əldə etdilər. Əsgərlərdən Habil Vəliyev (65 kq) daşı 80 dəfə qaldırmaqla birinci oldu. Kamil Vəliyev (60 kq) 82 dəfə və Kamran Mirzəquliyev (90 kq) 100 dəfə qaldırmaqla gümüş, Yasin Əhmədov (70 kq) 96 dəfə qaldırmaqla bürünc medala sahib çıxdılar.

Mükafatalayiq üçüncü yerə isə "Bərdə" komandasının (fiziki hazırlıq və idman rəisi mayor Hamlet Nəbiyevdir) daşqaldıranları layiq görüldülər. Onlar birinciliyin hər medalından birini qazandılar. Əsgərlərdən Fərid Mehdiyev (70 kq) daşı 108 dəfə qaldırıb birinci, Nicat Əmirov (65 kq) 80 dəfə qaldırıb ikinci, Sədulla Əliyev (80 kq) 96 dəfə qaldırıb üçüncü yerə layiq görüldülər.

Kiçik komandalar arasında ən yaxşı nəticəni Təlim və Tədris Mərkəzinin idmançıları göstərdilər. Bu komandanı təmsil edən Məğrur Abdulrəhmanov ən ağır çəkidə birinci yeri tutdu.

Müdafiə Nazirliyi fiziki hazırlıq və idman bölməsinin rəisi polkovnik-leytenant Sadiq Paşayev birinciliyə yekun vuraraq komandaların yarışda iştirakını dəyərləndirdi, növbəti birinciliklərə daha yaxşı hazırlaşmalarını tövsiyə etdi.

Qalib komandalara və idmançılara birinciliyin medal, fəxri fərman və diplomları təqdim edildi.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

### Avropa Oyunları açılış və bağlanış mərasiminin möhtəşəmliyilə fərqlənəcək



Yanvarın 25-də Atletlər Kəndində "Bakı-2015" Avropa Oyunlarının açılış və bağlanış mərasimlərində çıxış edəcək iştirakçıların növbəti dinləmələri təşkil olunub. AzərTAc xəbər verir ki, dinləmələri "Bakı-2015"in ulduz elçiləri "Eurovision-2011" Beynəlxalq mahnı müsabiqəsinin qalibləri Eldar Qasımov və Nigar Camal da izləyiblər. Dinləmələrdə 50-dən artıq gənc iştirak edib və onlar peşəkar komandanın tapşırıqlarını yerinə yetiriblər. "Bakı-2015"in açılış və bağlanış mərasimini hazırlayan "FiveCurrents" şirkətinin baş prodüseri Tom Bisinyano Avropa Oyunlarının 2015-ci ilin ən möhtəşəm tədbiri olacağını deyib və ölkə gənclərini bu yarışın bir hissəsi olmağa dəvət edib.

### Azərbaycan karate yığması Vətənə iki bürünc medalla qayıdıb



Dünya Karate Federasiyasının Parisdə keçirilən ikigünlük "Open de Paris" turniri başa çatıb. Komandaya ilk bürünc medalı 84 kiloqram çəki dərəcəsində çıxış edən Şahin Atamov qazandırıb. Keçirdiyi altı görüşdə rəqiblərinə böyük üstünlüklə qalib gələn Ş.Atamov misirli idmançı Mansur Ossalaya 1: 2 hesabı ilə uduzsa da, təsəlliverici mərhələdə hollandiyalı rəqibinə 4:2 hesabı ilə qalib gələrək bürünc medala sahib olub. Komandamıza ikinci bürünc medalı isə 67 kiloqram çəki dərəcəsində çıxış edən Tural Ağalarzadə qazandırıb.

### "Neftçi" komandası Rumıniyanın "Petrolul" kollektivinə qalib gəlib



Türkiyədə təlim-məşq toplanışında olan Bakının "Neftçi" futbol komandası hazırlıq çərçivəsində növbəti yoxlama matçına çıxıb. AzərTAc xəbər verir ki, baş məşqçi Arif Əsədovun komandası Antalyada Rumıniyanın "Petrolul" kollektivi ilə münasibətlərinə aydınlıq gətirib. Görüş "Neftçi"nin 1:0 hesablı qələbəsi ilə başa çatıb. Oyunda yeganə qolu Denis Silva vurub. "Neftçi" bundan əvvəl Səudiyyə Ərəbistanının "Hajer" (3:1), Türkiyənin "Kayseri Ərciyəsspor" (0:0) və "Elazığspor" (0:1), eləcə də Ukraynanın "Volın" (4:3) komandaları ilə qarşılaşıb.

### Toni Adams "Qəbələ" klubunun futbol direktoru təyin olunub



Uzun müddətdir klubda çalışan İngiltərə futbolunun əfsanəsi Toni Adams yeni vəzifəyə təyin olunub. Böyük britaniyalı futbol veteranı bundan sonra "Qəbələ"nin futbol direktoru kimi fəaliyyət göstərəcək. Klubdan AzərTAc-a bildiriblər ki, İngiltərə millisində və "Arsenal"dakı çıxışları ilə məşhurlaşan T.Adams "Qəbələ"yədək vətənində "Uikomb" və "Portsmut" klublarını çalışdırıb və zəngin futbolçu karyerası ilə tanınıb. Qırx doqquz yaşlı veteran karyerası ərzində yalnız bir klubun "Arsenal"ın şərəfini qoruyub. 500-dən artıq matç keçirdiyi komandada 14 il kapitan olan müdafiəçi İngiltərə yığmasında 66 dəfə forma geyinib.

### Məhəmməd Əlinin əlcəkləri hərraca çıxarılır



AzərTAc "Associated Press" agentliyinə istinadla xəbər verir ki, Məhəmməd Əlinin çempionluq titulunu ilk dəfə qoruduğu zaman geydiyi əlcəklər hərraca çıxarılıb. Gözlənildiyinə görə, lot bir milyon dollardan baha satılacaq. O vaxtlar adı Kassius Kley olan ağırçəkili Əli bu əlcəklərlə 1965-ci il mayın 25-də Soni Listonla döyüşdə qalib gəlib. Əli elə ilk raundda diqqəti bir o qədər də çəkməyən zərbə ilə rəqibini nokauta salıb. Onun bu zərbəsini sonralar xəyali zərbə adlandırıblar. Liston 17 saniyə yerdən qalxa bilməyib. Boks tarixində ən məşhur boksçulardan sayılan Məhəmməd Əli 1964-1966-cı illərdə, daha sonra 1974-1978-ci illərdə ağır çəkidə mütləq dünya çempionu olub. 1960-cı ildə isə 81 kiloqramadək çəki dərəcəsində Olimpiya çempionu titulunu qazanıb.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Tariximizin şanlı səhifəsi




***Bizi birləşdirən dəyər - Vətən uğrunda şəhidlik. Bu, bir millətin ölçüyəgəlməz mənəvi dəyəridir. Əgər bir xalqın övladları Vətən qarşısında borcunu öz həyatı bahasına yerinə yetirmək üçün böyük ideallar uğrunda mübarizəyə qalxırsa, əlbəttə, bundan böyük qəhrəmanlıq ola bilməz.***





25 il öncə Azərbaycanın müstəqillik qazanması uğrunda imperiyanın "etibarlı" ordusunun zirehli texnikası önünə çıxan qəhrəman oğullarımız məhz ən müqəddəs milli dəyərlərimiz olan müstəqillik, azadlıq naminə canlarını əsirgəmədilər.

Bəli, Vətən bu gün onların xatirəsini yad edir, xatırlayır. Millətimizin mənəvi dəyərlərinin rəmzinə çevrilən şəhidlik - qəhrəmanlıq günündə biz, Vətən uğrunda canını qurban verən mərd oğulların xatirəsini yaşatmaq üçün Müdafiə Nazirliyinin Hərbi-Elmi kitabxanasında bir daha toplandıq. Mərasimdə Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin, ali hərbi məktəblərin, Azərbaycan Hərb Tarixi Muzeyinin, Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin, "Hərbi bilik" jurnalının və s. hərbi qurumların zabitləri, əməkdaşları iştirak edirdilər.

Tədbir iştirakçıları əvvəlcə foyedə 20 Yanvar faciəsinin ağrı və acılarını özündə əks etdirən plakatlar, kitab sərgiləri və digər əyani-təbliğat vasitələrilə tanış oldular. Faciə qəhrəmanlarının şəkilləri önündə şamlar yandırıldı və onların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun dissertantı Aslan Şirəliyev tədbiri açıq elan edərək 20 Yanvar hadisələrinin səbəb və mahiyyəti, həmçinin qəhrəmanlıq tariximizdə rolundan danışdı.

Hərbi-Elmi kitabxananın rəisi, polkovnik-leytenant Elman Məmmədəliyev isə bu faciə haqqında şahidi olduğu faktlar əsasında söhbət açdı.

Kitabxananın işçisi Təranə Əliyeva faciəni əks etdirən ədəbi-bədii kompozisiyada rol alan şəhid anasının, ümumilikdə Azərbaycan qadınının o günlərə tuş gələn kədər və acısını hüznlü bir şəkildə çatdırdı. Şahidi olduğu, heç vaxt unutmayacağı hadisələr haqqında ətraflı danışdı.

Daha sonra Nadir İbrahimov, Zəminə Xınalı, Məleykə Mirzəliyeva 1990-cı ilin 20 yanvarında baş verənlərə öz münasibətlərini bildirdilər.

**Minaxanım ƏKRƏMQIZI**

***İdman təkcə sağlamlığın rəhni deyil. İdman onu həyat tərzi bilənlərin özünə də, təmsil elədiyi xalqa, dövlətə də şöhrət gətirən vasitələrdən biridir. İdmançı qələbə sevincini daha geniş şəbəkədə, daha geniş miqyasda yaşayır, zaman-zaman qüruruna ad olan duyğuları bu sevincin cazibəsindən boy göstərir. Onun şərəfinə Dövlət himni səslənirsə, onun qələbəsinə görə Dövlət bayrağı qaldırılırsa, idmançının qüruru, təbii ki, yerə-göyə sığmayacaq...***

*Fiziki hazırlıq*

# Qələbələr inam işığında aydın görünür



Elnur Məmmədli Olimpiya çempionu olmuşdu. Təqdimat mərasimində yanaqları boyunca axan iki damla yaş gördük. Qürur yaşıydı o iki damla yaş, sevinc yaşıydı. O sevinci yaşamaq, o sevinci dövlətini sevənlərə də yaşatmaq üçün idmançı fasiləsiz, ciddi məşqlər etməlidir. Orxan Məmmədli də belə idmançılardan biridir...

İstəyini səhər yelləri daraqlayan hər bir gənc üçün böyük idmana aparan yolun başlanğıcı yeniyetməlik (bəlkə də uşaqlıq) illərinin adına yazılmalıdı. Orxan Məmmədli Zəngilanda anadan olub. 1985-ci ildə. İndi zəngilanlı illərinin bəzi məqamlarını kövrəkliklə xatırlayır; ata yurdunun həsrəti onun da düşüncələrinin cığırdaşıdı. "Nələr qaldı illərin o üzündə?" - düşünür hərdən və bu düşüncələrinə bir bədii filmin adıyla təsəlli tapır: "Biz qayıdacağıq!"...

Əvvəl həvəsə, marağa görə, sonralar peşəkarlıqla məşğul olurdu idmanla. Taekvondo onun həyat tərzinə çevrilmişdi. Tay-tuşlarının məşğuliyyətinə uymurdu - məşqlərə gedirdi. Atasıyla, məşqçisiylə kəlmələşəndə də bir qədər çəkingənliklə, bir qədər inamla deyirdi: "Çempion olacam!". Haçansa oxuduğum bir məqaləni xatırlayıram: Olimpiya çempionu Fərid Mansurov hələ böyük idmanda tanınmamışdan məşqçisinə belə deyib: "Mən çempion olacağam!". Məşqçisi bu inamın işığında kövrəkliklə gülümsəyib, heç nə deməyib. Fərid bu sükutu "Əlbəttə, olacaqsan!" - kimi yozub...

Orxan 2003-cü ildə Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasına daxil olub. Tələbə-idmançı bir amalın cəfakeşiydi: özünün nəyə qadir olduğunu təsdiqləmək, Dövlət bayrağımıza sevgisinin nə səviyyədə olduğunu göstərmək - Azərbaycanımızı tanıtmaq! Müqəddəs bir niyyətin işığında peşəkar məşqlər bəhrəsini verməliydi. Verdi də:

***2008-ci il.*** Almaniyada 7-ci Avropa çempionatında qızıl medal;

***2010-cu il.*** ABŞ-ın Miçiqan ştatının Bətl Qrik şəhərində keçirilən dünya çempionatında qızıl medal (belə yarışların üç ildən bir keçirilməsi onun nə dərəcədə mötəbər olduğunun təsdiqidir və belə bir yarışın qalibi olmaq onun özünü də, bizləri də qədərsiz qürurlandırır);

***2010-cu il.*** Almaniyanın Qrvesaitingen şəhərində döyüş idmanı üzrə açıq Dünya çempionatında bürünc medal;

***2012-ci il.*** Türkiyənin Antalya şəhərində keçirilən King-Boks üzrə Türkiyənin qızıl kuboku;

***2013-cü il.*** Polşanın Çestanoşa şəhərində keçirilən açıq çempionatda bürünc medal;

***2013-cü il.*** Yunanıstanın Afina şəhərində döyüş idmanı üzrə Dünya çempionatında qızıl medal...

Orxan idmançıdır. Həm də kifayət qədər qibtəediləcək titullar qazanmış idmançıdır...

Hərbi xidmətdən sonra ehtiyat zabitlər kursunu bitirib, bir müddət zabit kimi xidmət edib. Hazırda H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində fiziki hazırlıq və idman müəllimi işləyir...

"Ən çətin döyüşün hansı olub?" - sualına həmişə düşünmədən, birmənalı cavab verir: "Bütün döyüşlər çətindir. Rəqibin gücünü qiymətləndirməlisən, özünün gücünə güvənməlisən. Yoxsa qələbə qazanmaq çətin olar".

İdman ustası Orxan Məmmədli özünə güvənir. Bu, inamdır - idmançının özünə inamı...

Bəzən düşünürəm: "Ən yaxşı vətəndaş" epitetini kimin ad-soyadı qarşısında işlətmək olar? Təbii ki, vətəndaş olaraq vəzifə borclarını ləyaqətlə yerinə yetirənlərə, Vətənini sevənlərə, dövlətinin daha əhatəli tanınmasının cəfakeşi olanlara deyilməlidir. Məhz idman ustası Orxan Məmmədli belə vətəndaşdır.

4-cü an qara kəmər sahibi Orxan Məmmədli özünə inanır, güvənir, biz də ona inanırıq, güvənirik...

Şübhəsiz, müəllim-idmançı hələ neçə-neçə qələbələr qazanacaq!

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

Leytenant Lətifli Xəyal Sahib oğluna 2014-cü ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əsgər İlqaroğlu Bəxtiyara 2013-cü ildə verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 219
Nüsxə 4600